*Vətən müharibəsindən reportaj*

# İşğaldan azad edilən torpaqlarımızda Azərbaycan bayrağı dalğalanır

*Oktyabrın çiskinli bir günündə yol yolçusuyuq. Yolumuz işğaldan azad olunan torpaqlarımızdan birinədi. Yol boyu fərqli duyğular məni ağuşuna alıb. Bu səfər digərlərinə bənzəmir. Azad olunan torpağımızı görmək sevincini yaşadığımdan ruhən Qarabağdayam. Ona görə də yollar mənə həm yarımçıq, həm də çox uzun gəlir. Baxırsan ki, yol gedir, qarşıda bir məhdudiyyət görünmür, ancaq nəzərdə tutulan məkana çata bilmirsən.*



Nəhayət, mənim üçün uzun gələn yolu qət etdikdən sonra işğaldan azad olunan tarixi torpağımızdayam. Torpağa baş əyib onunla söhbət edirmiş kimi pıçıltı ilə deyirəm: “Bu gün yolum sənə düşdü, səndən keçdi Ana yurdum, doğma diyarım. Sənin kiçik bir zərrən gəlib görüşünə. Çox şükür illərdir həsrətini çəkən oğulların izini görürəm qoynunda. Gözəlliyin gözümü qamaşdırdı. Necə gözəlsən, ulu diyar. Hər qarışını addımladıqca doymuram səndən! Səni qarış-qarış gəzmək cənnətdə addımlamaq kimidi, doğma diyarım!”



Doğma diyarımla söhbətdən məni zabit Elvin Şükürov ayırır. Zabit bildirir ki, bu gün ordumuz çox güclüdür. "1993-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan ordu quruculuğu bu gün ölkəmizin dinamik inkişafına uyğun olaraq özünün yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Azərbaycan xalqı bunun əyani təsdiqini 27 sentyabrdan başlayan əks-həmlə əməliyyatında gördü. Qısa bir zaman ərzində oğullarımızın torpaqlarımızı işğaldan azad etməsi Vətənini sevən hər kəsdə qürur və fəxarət hissi oyatdı. Hər kəs bir daha əmin oldu ki, Azərbaycanın hər an düşmənə layiqli cavab verə bilməyə qadir olan güclü, qüdrətli və modern ordusu, hərbi arsenalında isə ən müasir, dünyanın qabaqcıl ölkələrinin ordularının silahlanmada istifadə etdikləri texnika var".

"Ona görə hər kəs inanır ki, Azərbaycan əsgərinin sayəsində tezliklə haqqımız olana sahib olacağıq...", - deyə zabitin söylədiklərinə həmfikir oluram. Zabit fikrimin təsdiqi olaraq bildirir ki, Azərbaycan Ordusu Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini düşməndən azad etdiyi kimi, digər işğal olunmuş torpaqlarımızı da mütləq azad edəcəkdir. "Azərbaycan xalqı, Azərbaycan dövləti artıq bunun şahidi oldu. Biz bu gün Ali Baş Komandanımızın rəhbərliyi ilə Böyük Qələbənin tarixini yazdıq. Dövlət rəhbərliyi bu məsələni sülh yolu ilə həll etmək istəyirdi, ancaq ermənilərin yersiz torpaq iddiasını davam etdirməsi buna imkan vermirdi. Erməniləri döyüş meydanında məğlub etməklə arzumuza çatdıq. Əks-hücum əməliyyatı ilə xalqın həsrətinə son qoyuldu".

Söhbətimizin bu yerində Ravin Ədilov bildirir: "Bu gün ölkəmiz müharibə şəraitində yaşadığından, hər bir hərbi qulluqçumuz rütbəsindən və vəzifəsindən asılı olmayaraq özünü Azərbaycan Ordusunun əsgəri hesab edir. Bununla da şərəf duyuruq. Hər birimiz üçün bayrağımız da, torpağımız da şanlı və dəyərlidir. Vətən yolunda bir şəhid oluruqsa, düşmənin onlarla əsgərini məhv edirik. Unutmuruq ki, qanımızın son damlasına qədər savaşmaq bizim həm atalarımıza, həm də bu torpağa olan borcumuzdur."

Kiçik çavuş Fərhad Nəzərov qeyd edir ki, düşmənlə döyüşən şəxsi heyətimiz üçün əsas amil Vətəni işğaldan azad etmək olub. "Qətiyyətlə deyə bilərəm ki, əsgərlərimiz döyüş meydanında qəhrəmanlıqlar nümayiş etdirdilər. Başa düşürdük ki, torpağını işğaldan azad edən ölkənin ordusunun əsgəri mərd və qorxmaz olmalı, Vətənini sayıqlıqla qorumalıdır".

Artıq neçə gündür qanlı döyüşlərin birbaşa iştirakçısı olan əsgər Valeh Qarayev də söhbət zamanı Vətən müharibəsinin iştirakçısı olmasından şərəf duyduğunu bildirir: "Vətən müharibəsinin iştirakçısı olmaq çox şərəflidi, həm də hər zaman təhlükə altında olmaq deməkdir. Bu bizi qorxutmurdu, bizi narahat etmirdi. Çünki hər zaman ehtiyatı əldən verməməyə çalışırdıq. İçimizdə o qədər Vətən, torpaq sevgisi var ki, bu yolda ölüm də bizi qorxutmurdu".

Əsgər Ramin Şıxəliyev dostunun sözlərinə qoşulur: "Deyirlər ki, nəyi çox istəsən, o arzun mütləq həyata keçər. Mən Qarabağı görməyi, özü də azad görməyi çox istəyirdim. İstəyirdim ki, Qarabağın azadlığında mənim də bir əsgər kimi payım olsun. Şükürlər olsun ki, arzum həyata keçdi. Valideynlərimin çoxdandı ayaq basmadığı torpaqlara ilk olaraq əsgər kimi mən ayaq basdım. Tarixi Qələbəni qazanaraq, valideynlərimin, özümün və ən əsası xalqımızın xəyallarını gerçəkləşdirdik…





Əsgər Kənan Novruzov döyüş yoldaşının fikrinin təsdiqi olaraq deyir: "Müstəqil Azərbaycan, Vətənimiz, yurdumuz ifadəsi hamımız üçün əzizdir. Buna görə də dövlətimizin müstəqilliyini əbədi etmək üçün hər kəs əlindən gələni etdi, Vətən torpağına göz dikənlərə qarşı mübarizə apardıq. Vətənə xidmət etmək bir vətəndaş kimi bizim müqəddəs borcumuzdur. Bu şərəfli borcu məsuliyyətlə yerinə yetirmək üçün torpaqlarımızın azadlığı naminə qanımızı və canımızı əsirgəmədik".

"Qarşıda gördüyünüz torpaqlar tarixi Azərbaycan torpaqlarıdır. Bütün tarixi torpaqlarımızın geri qaytarılmasına sayılı günlər qalıb. Üçtərəfli qəbul edilən bəyanat da dediklərimizin sübutudur. Vətəni müdafiə etmək, onun uğrunda qan tökmək, canımızı fəda etmək vətəndaşlıq və əsgəri borcumuzdur", - deyə əsgər Ravin Ədilov əsgər yoldaşının sözünü təsdiqləyir.

Zabit Elvin Şükürov bildirir ki, hər xalqa öz ölkəsinin sahibi olmaq, özünün milli dövlətini qurmaq, ən ali dəyərlərini özündə ehtiva edən bayrağını yaşadığı ölkəsinin ərazisində dalğalandırmaq xoşbəxtliyi nəsib olmur. “Bu baxımdan Azərbaycan xalqı dünyanın ən xoşbəxt xalqlarından biridir. Çünki Azərbaycan xalqının bu gün müstəqil dövləti, möhtəşəm bayrağı vardır. O bayraq ki, müqəddəs Azərbaycan torpağının səmasında dalğalanır. O bayraq ki, onun əzəmətlə dalğalanması üçün yüzlərlə insan canını fəda edib. O bayraq ki, bu gün Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Suqovuşanda, Şuşada dalğalanmaqla düşmənə gözdağı olub. O bayraq ki, Böyük Qələbənin xəbərçisinə çevrilib”.



Söylənilən bu fikirlərin arxasında Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş bacarığı, Qələbə ruhu dayanır. Qələbə ruhlu igid oğullarımızın sayəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə işğalda olan digər torpaqlarımızın da azad edilməsinə zəmanət əldə etdik, şəhidlərimizin qanı yerdə qalmadı, düşmənin layiqli cəzası verildi və üçrəngli bayrağımız tezliklə azad, müstəqil, Qarabağına qovuşan Azərbaycanın səmasında dalğalanacaq!

Qələbən mübarək, Azərbaycan!

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**